# Sədaqət, ləyaqət və fədakarlıq mücəssəməsi

İnsan dünyaya gələndə bütün sevgilər onunla birlikdə doğulur. Ata-ana, bacı-qardaş sevgisi, ətrafa, cəmiyyətə, təbiətə, xalqa və ən nəhayət, vətən sevgisi. Bu sevgilər birləşib vəhdət olaraq insanı daha da kamilləşdirir, mükəmməl bir şəkildə həyata baxışını hədəfləyir, imtahan üçün gəldiyi dünyaya bəxş edəcəyi insani əməllərini daha da gözəlləşdirir. Kainatın bir parçası, ən alisi olan insanın bu sevgisinə düşüncələri, fikirləri, əməlləri daha bir güc, gözəllik qatır. Bütün bunlar birləşərək ali insan, vətənə layiq əsl vətəndaş kimi doğru istiqamətə yönəldir. Əsl insan, fədakar insan, ləyaqətli, şərəfli insan və ən nəhayət vətən sevgisi ilə vətən tarixində dərin iz qoyan, ruhu vətən göylərində dolaşan ölməz, əbədiyaşar insan, dillərdə, ürəklərdə, sətirlərdə, kitablarda ən əsası vətənin tarixində, xalqın qəlbində əbədi qəhrəman adı ilə yaşayan insan!

Peşəsindən, vəzifəsindən, cinsindən asılı olmayaraq üzərinə düşən işi layiqincə yerinə yetirmək, çiyinləri ağır yükü çəkə biləcək qədər möhkəm durmaq, əzəmətli, vüqarlı sima sərgiləmək həyat amalı olur əsl vətən övladlarının. Bütün bu müsbət insani keyfiyyətlərə malik olan insanların dünyaya gəlişi adi olsa da, ölümləri tarixə qovuşaraq daha əzəmətli, yaşadıqları vətən tarixinin bir hissəsi kimi dəyərli olur. Əməlləri eyni, vətənə, xalqa olan sevgisi eyni, amal eyni, əqidə eyni, lakin qəhrəmanlığın, fədakarlığın parlaq təzahürünün tarixi anı, vətənə, xalqa sonsuz sevginin son nöqtəsi, ucaldığı zirvənin, son nəfəsi ulu Tanrıya tapşırdığı tarixi gün ayrı, saniyələr, saatlar, günlər, illər ayrı...

Bu ayrı-ayrı tarixlərdə yalnız bir həqiqət cəmlənir, vətənə sonsuz sevgi, son nəfəsinədək xalqa xidmət, əsl vətəndaş prinsipi, mükəmməl bir insan xarakteri. Bütün bu sevgiləri ilə doğulan insan son anına qədər sevgisini əməli ilə təsdiqləyir. Harada olursa-olsun, vəzifə başında kimliyindən asılı olmayaq, fərq etməz istər kişi olsun, istərsə də qadın vətən sevgisini əməli şəkildə təsdiq edir. Belə qəhrəmanların mübarizliyi, şücaəti, rəşadəti, hünəri xalqı daha da sıx birləşdirir.

“Aslanın erkəyi, dişisi olmaz“ deyib atalarımız. Əlbəttə əməlləri ilə vətənə sevgisini təsdiq edən, vəzifə başında, işini layiqincə yerinə yetirən zaman əbədiyyətə qovuşan Azərbaycan qadını bu şərəfli adı zamanla özü ilə birlikdə daşıdı və yaşatdı. XX əsrin sonu 1991-ci ilin soyuq qış günündə yanvarın



9-da Salatın Əsgərova (1961-1991) vətənin dar günündə, xalqa həqiqətləri çatdırmaq, dünyaya haqq səsimizi yüksəltmək üçün bu bu çətin və şərəfli yolu seçdi. Qeyrətli vətən qızı getdiyi yolun çətin və keçilməz olduğunu çox yaxşı bilirdi. O, yaxşı bilirdi ki, bu yolun geriyə dönüşü yoxdur, lakin vətənə, xalqa hədsiz sevgisi, peşəsinə vurğunluğu, rəşadəti, hünəri hər çətinliyə üstün gəldi. Düşmənin azğın, qəddar, amansız olduğunu bildiyi halda bu çətin yola çıxdı. Bu yol onun son yolçuluğu, son gedişi olsa da fəxr və qürurla başa vurdu. Vətəndaş kimi, insan kimi, peşəsinin fədaisi olaraq bu yolda heç nədən qorxmadı. Vətən sevgisi o qədər üstün oldu ki, bütün çətinliklər ona xəyalən belə yaxınlaşa bilmədi. Düşüncəsində, fikrində, xəyalında bütün daxili gücü ilə vətənə, xalqa xidmət yolunda fədakar Azərbaycan qadını adını bir daha yüksəklərə qaldırdı. Ləyaqət, sədaqət rəmzi olan Azərbaycan qadını kimi özündən sonra parlaq səhifə açdı, dərin iz qoyduğu şərəfli yolu əbədi ərməğan etdi. Çətin və şərəfli yolu addımlamağı, gələcək nəslə örnək olacaq bir həyat yaşamağı, peşəsindən asılı olmayaraq vətən fədaisi olmağı aşıladı. Əməlləri ilə sevgisi birləşib yenilməz bir qüvvəyə çevrildi, Bakıdan Laçına bir yol başladı, geriyə dönüşü olmasa da fəxr-fəxarətlə, qürurla anılan bir yol oldu. Özündən sonra bu yolun yolçusu olmağa ümid yaratdı, elə bir ümid ki, torpağını, havasını bölüşdüyü həmvətəni Gültəkin Əsgərova (1960-1992) heç bir qorxu bilmədən vəzifəsini yerinə yetirmək üçün mübarizəyə qatıldı. Bakıdan Qarabağa bir yola çıxdı, dönüşü olmayan Şəhid adını daşıyan müqəddəs bir yola. Yaralı əsgərlərə həkim olaraq qayğı göstərmək, Salatının timsalında bütün şəhid övladların qisasını almaq Gültəkinin həyat amalı oldu. Könüllü olaraq vətənə xidmət yolunu üstün tutan Gültəkin yeganə balasını anasına əmanət edərək döyüş meydanına yollanır. 1992-ci ilin aprel ayında evindən ayrılan Gültəkin Əsgərova Turşsu, Şuşa xəstəxanasında və Ağdamın Mahmızlı kəndində hospitalda həkim kimi əsgərlərə yardım edir. Şuşanın işğalından sonra ən son tərk edənlərin dəstəsində urəyində nisgil, qübar bir yandan qisas hissi ilə geriyə yol alır. Ancaq buradan Bakıya deyil, cəbhə bölgəsində qalmağı həkim kimi,yeri gələndə əsgər kimi döyüşməyi qarşısına məqsəd qoyaraq Qubadlının müdafiəsində iştirak edir, Ağdamın Mahmızlı kəndində vəzifəsini uğurla yerinə yetirir və Aranzəminli yüksəkliyi uğrunda döyüşdə qəhrəmancasına həlak olur, şəhadətə yüksəlir. Hərbi həkim, cəsarətli döyüşçü kimi əbədiyyətə qovuşur. Çətin yolda hədəfə çatmaq baş ucalığı olduğunu bilən Salatın da, Gültəkin də hünər və şücaəti ilə XX əsrin sonunda yaşadıqlarını, həyat və döyüş yolunda keçdikləri bütün çətinlikləri vətən tarixinin bir hissəsi olaraq əməlləri ilə yazdılar. Bu əməlləri Azərbaycan tarixinin səhifələrində oxuyan bütün vətən övladları onların həyat və döyüş yolunu nümunə, örnək götürdülər.

XXI əsri yaşayan hər bir vətəndaş qısa, lakin şərəfli ömür yaşayanların, tarixi qəhrəmanların həyat hekayələrindən bəhrələnir. Artıq mübariz, qorxmaz, şücaətli bir gənc nəsil böyüyür. Heç nədən qorxmayan, hər cür çətinliyə sinə gərən, hər şey yaxşı olacaq deyib, gələcəyin tarixini yazan gənc nəsil. Vaxt var idi bütün bunları tarixi romanlarda, povestlərdə oxuyurduq, lakin indi bu kimi qəhrəmanlarla bir zamanda yaşayırıq, peşəsindən asılı olmayaraq onların qorxmazlığına şahid oluruq.

Harada olursa-olsun havada, suda, quruda, aydın səmalarda olsa belə onların mübarizliyi, ölümün gözünə dik baxması, bütün çətinliyə “hər şey yaxşı olacaq” deyərək ümid qığılcımı yaratmaqla son imkanı əldə verməmək və bu yolda şərəflə ölümə getmək bu günkü nəslin nümayəndəsi Hökümə Əliyevanın (1991-2024) fədakarlığı ilə tarixə yazıldı. Bakı Dövlət Universitetinin hüquq fakültəsinin məzunu, magistatura və doktorantura pillələrində təhsilini uğurla başa vuran Hökümə Əliyeva peşəkar stüardessa kimi vəzifə başında 33 yaşında həyata əlvida dedi. Aydın səmalara dəfələrlə qalxan Hökümə hec bilməzdi ki, mavi səma bir gün qaranlığa boyanacaq, günəşin üzünə qara buludlar çəkiləcək, quşların azad bir şəkildə uçduğu göy üzündən onun ölüm xəbəri xalqına bəyan olunacaq. O heç bilməzdi ki, vaxt, zaman gələcək aydın səma, parlaq günəş ağ buludlar ifadələrində ölüm qorxusu hiss olunacaq. O bilməzdi ki, sonsuz, aydın səma, geniş fəza insanlıqdan uzaq fikir sahiblərinin qətl meydanına çevriləcək. Əlbəttə o, heç bilməzdi ki, gözəlliyinə tamaşa etdiyi göy üzü onun cansız bədənini yerə əbədi qəhrəman kimi bağışlayacaq. İstilik, işıq sacan günəş də bəd əməllərdən şövqünü itirəcək, buludların arxasında gizlənəcək. Bəli heç kim bilməzdi ki, çirkin niyyətlər aydın səmaya tuşlanacaq, qatil əllər nurlu səmanı al-qana boyayacaq. Heç kim bilmirdi ki, o gün Höküməni aydın səmaya son uçuşu olacaq, heç özü də bilmirdi ki, o gün onun günəşi əbədi olaraq sönəcəkdir. Vəziyyətdən xəbərdar olan Hökümə Əliyeva təyyarədəki sərnişinlərə ürək-dirək verməklə hər şeyin yaxşı olacağına ümid bəsləyirdi. Səsindəki titrəyişi onun can yanğısını, vəzifəsinə uyğun olaraq sərnişinləri mənzil başına çatdıra bilməyəcəyinin həyacanı idi. Lakin bütün bunların qarşında “hər şey yaxşı olacaq “ deyərək vəzifəsini son nəfəsinədək uğurla həyata keçirdi. Xain plan nəticəsində dünya ilə əbədi vidalaşan Hökümə Əliyevanı, onunla birlikdə həlak olanları bu gün bizə səmalarda uçan quşlar, təyyarələr və həmin günə şahidlik edən günəş, buludlar xatırladacaq. Hər dəfə göy üzünə baxanda onların ruhlarının mavi səmada süzdüyünü düşünəcəyik.

Əlbəttə bütün bunlar insan taleyi olmaqla bərabər əzmin, fədakarlığın, şücaətin və rəşadətin və ən əsası vəzifənin layiqincə yerinə yetirməsinin bariz nümunəsidir. Bu gün onların yaşadıqlarını, xalqın, vətənin azadlığı, xoş sabahı naminə qatlaşdığı bütün çətinlikləri səhifə-səhifə oxuyuruq. Artıq onların həyat yolu bir tarixə çevrilib. Azərbaycanın Milli Qəhrəmanları Salatın Əsgərova, Gültəkin Əsgərova, Hökümə Əliyeva vətən tarixinin səhifələrində qürurla, fəxrlə, ehtiramla yad edilir. Onlar həqiqi qəhrəmanlıqları ilə Azərbaycan qadını adını şərəflə göylərə ucaltdı. Türk dünyasının qəhrəman qadınları, anaları kimi müqəddəs bir adı qəlblərə həkk etdilər.

**İlhamə SEYİDOVA,**
**“Qəbələ”nin ştatdankənar müxbiri.**

# Tədbir keçirilib

Qəbələ rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə "31 dekabr - Hər bir azərbaycanlı üçün birlik, həmrəylik günü" adlı tədbir keçirilib.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin, Qəbələ rayon MKS-nin, Tarix-Diyarşünaslıq Muzeyinin, Uşaq İncəsənət Məktəbinin, şəhər 3 saylı tam orta məktəbin əməkdaşlarının iştirak etdiyi tədbirin açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə çıxış edənlər qədim və zəngin tarixə malik olan, Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən bu əlamətdar günün yaranması tarixindən və onun əhəmiyyətindən, ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən, o cümlədən ölkəmizin son illər ərzində əldə etdiyi uğurlardan söz açılıb.

Çıxışlardan sonra Mərkəzdə təşkil edilmiş tədbirlərdə fəal iştirakına və səmərəli əməkdaşlığına görə bir sıra idarə və təşkilatlara “Təşəkkürnamə”lər təqdim edilib, mövzu ilə bağlı video-çarx nümayiş olunub.

1. Ağlayan daşlar: Kaliforniyada yerləşən Death Valleydəki "ağlayan daşlar" yerini tərk edərək özləri hərəkət edirlər. Bəzi daşlar düz və uzun izlər buraxır, bu hadisə çox uzun müddət boyunca sirr olaraq qalmışdı, amma sonunda məlum oldu ki, çox incə bir buz qatının üzərində küləklə sürüklənirlər.

# Qeyri-adilik

2. Şimşəkdəki 4 rəng: şimşək adətən ağ və mavi rəngdə görünür, amma bəzi qeyri-adi şimşək hadisələrində onun sarı, qırmızı və bənövşəyi rəngdə olması da müşahidə olunub. Bu rəng dəyişməsi, atmosferdəki qeyri-adi şəraitdən və xüsusilə yüksək hava təzyiqindən asılıdır.

3. Kiprianın Zamanın Dağıldığı Kəsik: Kipr adasında bəzi insanlar öz vaxtlarını müəyyən bir anın içində itirmiş kimi hiss edirlər. İnsanlar keçmişi və gələcəyi qarışdıraraq "dondurulmuş" bir zaman anını yaşadıqlarını bildirirlər. Bu hadisə "qeyri-adi zaman" fenomeni kimi tədqiq olunur.

4. Qarışıq Yüksək Səsli Uçuşlar: Bəzi uçuşlar çox yüksək sürətlə və səsli şəkildə uçarlar, amma uçuş zamanı heç bir səs çıxarmırlar. Bu hadisə, uçuşun yüksək sürətinin atmosferi dəyişdirərək "səsli boşluq" yaratması ilə əlaqələndirilir.

5. Ölü Dəniz: Yaxın Şərqdə yerləşən Ölü Dəniz suyu o qədər yüksək duzlu və mineral tərkiblidir ki, insanlar asanlıqla üzə bilirlər və bu vəziyyət uzun müddət onları batırmadan saxlayır.

**Topladı: Natəvan YUSİFOVA.**

# Milad bayramı qeyd edilib

Qəbələ rayonunun Nic qəsəbəsində pravoslav xristianlarının bayramı olan Milad bayramı münasibətilə tədbir keçirilmişdir. Qəsəbədə fəaliyyət göstərən “Cotari” alban kilsəsində təşkil edilmiş mərasimdə Alban-Udi icmasının üzvləri ilə yanaşı rayon ictimaiyyətinin nümayəndə-



ləri də iştirak etmişlər. Mərasimdə çıxış edən Azərbaycan Respublikası Alban-Udi Xristianları İcmasının sədri Robert Mobili və icmanın üzvləri Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışmış, bayram münasibətilə təbriklər səsləndirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya Nic qəsəbəsinə göstərdikləri diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildirmişlər.